HEQT

HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ

# "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" Publik Hüquqi Şəxsi

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış Konsolidə edilmiş Maliyyə Hesabatları**

**31 Dekabr 2023-cü il tarixində bitən il üzrə**

***Bakı-2024***

## MÜNDƏRİCAT

Səhifə

KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİNƏ GÖRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA BƏYANAT. 31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BİTƏN İÜZRƏ........ 3

MÜSTƏQİL AUDİTORUN HESABATI........ ........4-5

**KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARI:**

MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDASİYA EDİLMİŞ HESABAT ........ 6-7

MƏNFƏƏT VƏ ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA KONSOLİDASİYA EDİLMİŞ HESABAT ........ 8-9

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDASİYA EDİLMİŞ HESABAT ........ 10

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDASİYA EDİLMİŞ HESABAT........ ..11-12

ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTLƏRİ VƏ KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR ........ ........13-19

## KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİNƏ GÖRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA BƏYANAT

31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Bu bəyanat **"Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" Publik Hüquqi Şəxsin** (bundan sonra "Mərkəz") Konsolidasiya edilmiş maliyyə hesabatlartı ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik, 31 dekabr 2023-cü il tarixinə Mərkəzin maliyyə vəziyyətini, həmin ildə başa çatmış il üzrə mənfəət və ya zərərini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun konsolidasiya edilmiş maliyyə hesabatlarının düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

**Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:**

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının 30 yanvar 2017-ci il tarixli Q-01 nömrəli Qərarı ilə təsdiq edilmiş "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən muhasibat uçotunun aparılması Qaydaları"-na uyğunluğun bəyan edilməsi və əgər bu standartlardan əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanması və izah edilməsi.

**Rəhbərlik həmçinin aşağıdakı məslələr üzrə məsuliyyət daşıyır:**

- Mərkəzin Konsolidasiya edilmiş maliyyə hesabatlarının "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən muhasibat uçotunun aparılması Qaydaları"-na uyğun olaraq düzgün hazırlanması və Mərkəzin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə Konsolidasiya edilmiş maliyyə hesabatları Mərkəz tərəfindən 22 aprel 2024-cü il tarixində tərtib olunmuşdur.

**Rəhbərlik tərəfindən:**

**Samir Mahmudov**
**İcraçı direktor**

AZƏRBAYCAN RESPUBLİKASI PUBLİK HÜQUQİ ŞƏXSİ HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ PUBLIC LEGAL ENTITY THE REPUBLIC OF AZERBAIJAN

**Arzu Namazova**
**Maliyyə meneceri**

**M.Y**

AUDITOR

**AZƏRUÇOT**

MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT

Azərbaycan, Bakı, AZ 1025
Yusif Səfərov küç.., 18, mən.163
Tel: +994 12 496 51 41
Mob.: +994 50 800 69 59
E-mail.:azəruçot@gmail.com
Web: www.azəruçot.az

29.06.2024

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**"Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" Publik Hüquqi Şəxsin Rəhbərliyinə:**

***RƏY***

Biz, "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" Publik Hüquqi Şəxsinin (bundan sonra "Mərkəz") 31 dekabr 2023-cü il tarixinə Konsolidasiya edilmiş maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə mühasibat uçotunun əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, Konsolidasiya edilmiş maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş Konsolidasiya edilmiş maliyyə hesabatları Mərkəzin 31 dekabr 2023- cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının 30 yanvar 2017-ci il tarixli Q-01 nömrəli Qərarı ilə təsdiq edilmiş "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması qaydaları"-na uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

***Rəy üçün əsaslar***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tələblərinə uyğun olaraq Mərkəzdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu Məcəllənin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Konsolidasiya edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti***

Rəhbərlik Konsolidasiya edilmiş maliyyə hesabatlarının Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının 30 yanvar 2017-ci il tarixli Q-01 nömrəli Qərarı ilə təsdiq edilmiş "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən muhasibat uçotunun aparılması Qaydaları"-na uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Təşkilatı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Mərkəzin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan

məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Mərkəzin Konsolidasiya edilmiş maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

Bizim məqsədimiz təqdim edilmiş Konsolidasiya edilmiş maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkar etsin. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə konsolidasiya edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**"Azəruçot" MMC-nin Direktor-auditoru** **Təhməzov Eldar Azay oğlu**

Azərbaycan Respublikasının Auditorlar
Palatası tərəfindən verilmiş
İCAZƏ: "Azəruçot" MMC AT/238 22.11.2021- ci il

## Maliyyə vəziyyəti haqqında konsolidasiya edilmiş hesabat

31 Dekabr 2023-cü il

Ölçü vahidi: manat

| Bölmə/ maddə | Bölmə/Maddələrin adı | Uçot siyasəti və izahlı qeydlərin №si | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| | **AKTİVLƏR** | | | |
| 1 | **Uzunmüddətli aktivlər** | | | |
| 10 | Qeyri-maddi aktivlər | | | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 1 | 360 390.46 | 147 233.50 |
| 12 | İnvestisiya mülkiyyəti | | - | - |
| 13 | Bioloji aktivlər | 1 | 2 016.67 | - |
| 14 | Təbii sərvətlər | | - | - |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | - | - |
| 16 | Təxirə salınmış vergi aktivləri | | - | - |
| 17 | Uzunmüddətli debitor borcları | | - | - |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | - | - |
| 19 | Sair uzunmüddətli aktivlər | 1 | 76 488.00 | - |
| | **Cəmi uzunmüddətli aktivlər** | | **438 895.13** | **147 233.50** |
| 2 | **Qısamüddətli aktivlər** | | - | - |
| 20 | Ehtiyatlar | 2 | 32 869.44 | 4 556.35 |
| 21 | Qısamüddətli debitor borcları | | - | - |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 2 | 278 387.85 | 1 360.49 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | - | - |
| 24 | Sair qısamüddətli aktivlər | 2 | 87 152.00 | 43 191.27 |
| | **Cəmi qısamüddətli aktivlər** | | **398 409.29** | **49 108.11** |
| | **CƏMİ AKTİVLƏR** | | **837 304.42** | **196 341.61** |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | - | - |
| 3 | **Kapital** | | - | - |
| 30 | Ödənilmiş nominal(nizamnamə) kapital | 3 | 150 000.00 | 100 000.00 |
| 31 | Emissiya gəliri | | - | - |
| 32 | Geri alınmış kapital (səhmlər) | | - | - |
| 33 | Kapital ehtiyatları | 3 | 115 516.00 | |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 3 | 303 259.57 | 51 789.85 |
| | **CƏMİ KAPİTAL** | | **568 775.57** | **151 789.85** |
| 4 | **Uzunmüddətli öhdəliklər** | | - | - |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | - | - |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | - | - |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | - | - |
| 43 | Uzunmüddətli kreditor borcları | | - | - |

| | | | | |
|---|---|---|---|---|
| 44 | Sair uzunmüddətli öhdəliklər | | - | - |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | - | - |
| **5** | **Qısa müddətli öhdəliklər** | | - | - |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | - | - |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | - | - |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 4 | 25 271.00 | |
| 53 | Qısamüddətli kreditor borcları | | 2 036.00 | |
| 54 | Sair qısamüddətli öhdəliklər | 4 | 241 222.85 | 44 551.76 |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **268 528.85** | **44 551.76** |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | | **268 528.85** | **44 551.76** |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **837 304.42** | **196 341.61** |

**Rəhbərlik tərəfindən:**

AZƏRBAYCAN RESPUBLİKASI PUBLİK HÜQUQİ ŞƏXSİ HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ PUBLIC LEGAL ENTITY THE REPUBLIC OF AZERBAIJAN

**Samir Mahmudov**
**İcraçı direktor**

Bakı, Azərbaycan Respublikası

**Arzu Namazova**
**Maliyyə meneceri**

Bakı, Azərbaycan Respublikası

**M.Y**

"Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" Publik Hüquqi Şəxsi

## Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında konsolidasiya edilmiş hesabat
**31 Dekabr 2023-cü il tarixinə**

*Ölçü vahidi: manat*

| Bölmə/ maddə | Bölmə/Maddələrin adı | Uçot siyasəti və izahlı qeydlərin №si | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | | |
| | **GƏLİRLƏR** | | | |
| 60 | Əsas əməliyyat gəlirləri | 5 | 124 300.00 | 457 075.19 |
| 61 | Sair əməliyyat gəlirləri | 5 | 3 529 213.91 | - |
| 62 | Fəaliyyətin dayandırılmasından yaranan gəlirlər | | - | - |
| 63 | Maliyyə gəlirləri | | - | - |
| 64 | Fövqəladə gəlirlər | | - | - |
| | **Cəmi gəlirlər** | | **3 653 513.91** | **457 075.19** |
| | **XƏRCLƏR** | | - | - |
| 70 | Satışın maya dəyəri üzrə xərclər | | - | - |
| 71 | Kommersiya xərcləri | | - | - |
| | Kommersiya xərcləri kimi tanınan xammal və material xərcləri | | - | - |
| | Kommersiya xərcləri kimi tanınan işçi heyəti üzrə xərclər | | - | - |
| | Kommersiya xərcləri kimi tanınan işçi heyəti üzrə xərclərə görə hesabalanılan sosial sığorta ayırmalar | | - | - |
| | Kommersiya xərcləri kimi tanınan aktivlər üzrə amortizasiya xərcləri | | - | - |
| | Kommersiya xərcləri kimi tanınan digər xərclər | | - | - |
| 72 | İnzibati xərclər | 6 | 3 335 635.19 | 405 285.34 |
| | İnzibati məqsədlər üçün istifadə olunmuş xammal və material xərcləri | | 26 707.53 | 106.00 |
| | İnzibati işçi heyəti üzrə xərclər | | 2 413 704.22 | 321 156.98 |
| | İnzibati işçi heyəti üzrə xərclərə görə hesablanılan sosial sığorta ayırmaları | | 591 184.34 | 78 061.22 |
| | İnzibati məqsədlər üçün istifadə olunan aktivlərin amortizasiya xərcləri | | 25 542.02 | - |
| | İnzibati məqsədlərlə bağlı digər xərclər | | 278 497.08 | 5 961.14 |
| 73 | Sair əməliyyat xərcləri | 6 | 31 124.00 | - |
| 74 | Fəaliyyətin dayandırılmasından yaranan xərclər | | - | - |
| 75 | Maliyyə xərcləri | | - | - |
| 76 | Fövqəladə xərclər | | - | - |

| | | | | |
|---|---|---|---|---|
| | **Cəmi Xərclər** | | **3 366 759.19** | **405 285.34** |
| | **Mənfəət (zərər)** | | - | - |
| **80** | Ümumi mənfəət (zərər) | 7 | 286 754.72 | 51 789.85 |
| 81 | Asılı müəssisələrin mənfəətində (zərərində) pay | | - | - |
| | **Cəmi Mənfəət (zərər)** | | **286 754.72** | **51 789.85** |
| 90 | **Mənfəət vergisi** | **8** | **24860,00** | **-** |
| 341 | **Xalis mənfəət (zərər)** | | **261 894.72** | **51 789.85** |

**Rəhbərlik tərəfindən:**

AZƏRBAYCAN RESPUBLİKASI PUBLİK HÜQUQİ ŞƏXSİ HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ PUBLIC LEGAL ENTITY THE REPUBLIC OF AZERBAIJAN

**Samir Mahmudov**
**İcraçı direktor**

Bakı, Azərbaycan Respublikası

**Arzu Namazova**
**Maliyyə meneceri**

Bakı Azərbaycan Respublikası

**M.Y**

## Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi " Publik Hüquqi Şəxs

# Kapitalda dəyişikliklər haqqında konsolidasiya edilmiş hesabat

**31 dekabr 2023-cü il tarixə**

*Ölçü vahidi: manat*

| | Uçot siyasəti və izahlı qeydlərin №si | Ödənilmiş nizamnamə (nominal) kapital | Emissiya gəliri | Geri alınmış kapital (səhmlər) | Kapital ehtiyatları | | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yenidən qiymətləndirilmə üzrə ehtiyat | Digər ehtiyatlar | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq | | | | | | | | |
| Əvvəlki hesabat dövründə uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | | | |
| Səhvlərin düzəldilməsindən sonra əvvəlki hesabat dövrünün əvvəlinə qalıq | | | | | | | | |
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | | | | | | | 51 789.85 | **51 789.85** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | 100 000.00 | | | | 182 538.00 | - 10 425.00 | **272 113.00** |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | | |
| Sair məcmu gəlir | | | | | | | | |
| ***Əvvəlki hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi*** | | 100 000.00 | | | | **182 538.00** | 41 364.85 | 323 902.85 |
| **Əvvəlki hesabat dövrünün sonuna olan qalıq** | | **100 000.00** | | | | **182 538.00** | **41 364.85** | **323 902.85** |
| **Hesabat dövründə uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər** | | 50 000.00 | | | | - 50 000.00 | | - |
| Səhvlərin düzəldilməsindən sonra hesabat dövrünün əvvəlinə qalıq | **3** | **150 000.00** | | | | **132 538.00** | **41 364.85** | **323 902.85** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | | | | | | 261 894.72 | **261 894.72** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | - 17 022.00 | | **- 17 022.00** |
| Sair məcmu gəlir | | | | | | | | |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | | | | | | **- 17 022.00** | 261 894.72 | **244 872.72** |
| **Hesabat dövrünün sonuna qalıq** | **3** | **150 000.00** | | | | **115 516.00** | **303 259.57** | **568 775.57** |

**Rəhbərlik tərəfindən:**

**Samir Mahmudov**
**İcraçı direktor**
Bakı, Azərbaycan Respublikası
**M.Y**

**Arzu Namazova**
**Maliyyə meneceri**
Bakı, Azərbaycan Respublikası

## Pul vəsaitlərinin hərəkəti haqqında konsolidasiya edilmiş hesabat
**31 dekabr 2023-cü il tarixə**

*Ölçü vahidi: manat*

| | Uçot siyasəti və izahlı qeydlərin №si | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Malların satışından və xidmətlərin göstərilməsindən daxilolmalar | | 124 300.00 | |
| Royaltilər, yığımlar və komisyon haqları üzrə daxilolmalar | | | |
| Digər gəlirlərdən daxilolmalar | | 9 401.00 | |
| **Əməliyyat fəaliyyətindən cəmi daxilolmalar** | | **133 701.00** | |
| Mallar və xidmətlərə görə xaricolmalar | | 367 016.43 | 53 815.00 |
| İşçilərin mükafatlandırılması ilə əlaqədar ödənişlər | | 3 013 951.57 | 399 218.00 |
| Mənfəət vergisi ödənişi üzrə xaricolmalar | | | |
| Digər vergilərə görə xaricolmalar | | | |
| Əməliyyat fəaliyyətindən yaranan faiz ödənişləri üzrə xaricolmalar | | | |
| Digər ödənişlərə görə xaricolmalar | | 9 401.00 | |
| **Əməliyyat fəaliyyətindən cəmi xaricolmalar** | | **3 390 369.00** | **453 033.00** |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(3 256 668.00)** | **(453 033.00)** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | 164 943.65 | 147 233.50 |
| Digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının satılmasından yaranan pul vəsaitlərinin daxilolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdə tutulmuş alətlər üzrə pul vəsaitlərinin daxilolmaları istisna olmaqla); | | | |
| Digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının əldə edilməsi üçün ödənilən pul vəsaitlərinin xaricolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdə tutulmuş alətlər üzrə pul vəsaitlərinin xaricolmaları istisna olmaqla); | | | |
| Digər tərəflərə verilmiş borcların qaytarılmasından pul vəsaitlərinin daxilolmaları; | | | |
| Digər tərəflərə verilmiş borclara görə pul vəsaitlərinin xaricolmaları; | | | |
| Fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin daxilolmaları; | | | |

| | | | |
|---|---|---|---|
| Fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin ödənişləri; | | | |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları. | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(164 943,65)** | **(147 233,50)** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| nizamnamə kapitalının artırılması | | | 100 000.00 |
| səhmlərin və digər kapital alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| müəssisənin öz səhmlərinin əldə edilməsi və ya yenidən alınması nəticəsində pul vəsaitlərinin xaricolmaları | | | |
| təminatsiz istiqrazların, borc sənədlərinin, veksellərin, istiqraz vərəqələrinin, girov kağızlarının buraxılmasından və digər qısamüddətli və uzunmüddətli borcların alınmasına görə pul vəsaitlərinin daxilolmaları; | | | |
| borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | | |
| məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | | 3 699 999.49 | 900 000.00 |
| məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | 1360.49 | 398 373.00 |
| maliyyə icarəsi müqavilələrinin şərtlərinə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları | | | |
| dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | | |
| faizlər şəklində pul vəsaitlərinin xaricolmaları | | | |
| Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **3 698 639.00** | **601 627.00** |
| Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması) | | 277 027.00 | 1 360.50 |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin hərəkəti** | | | |
| bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği | | 1360.50 | |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | | 277 027.35 | 1 360.50 |
| xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | **2** | **278 387.85** | **1 360.50** |

**Rəhbərlik tərəfindən:**

**Samir Mahmudov**
**İcraçı direktor**

Bakı, Azərbaycan Respublikası

**Arzu Namazova**
**Maliyyə meneceri**

Bakı, Azərbaycan Respublikası

AZƏRBAYCAN RESPUBLİKASI PUBLİK HÜQUQİ ŞƏXSİ HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ PUBLIC LEGAL ENTITY THE REPUBLIC OF AZERBAIJAN

**M.Y**

# ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTLƏRİ VƏ KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR

## 31 DEKABR 2023-CÜ İL TARİXİNƏ

### 1. Mərkəzin Əsas Fəaliyyəti

"Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" PHŞ (bundan sonra Mərkəz) Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Sərəncamına əsasən yaradılmışdır.

Mərkəzin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

Hüquqi şəxs Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 30.04.2007-ci il tarixli Fərmanına əsasən "bir pəncərə" prisnispi ilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən 15 iyul 2022-ci il tarixli 2201020060381600 nömrəli dövlət qeydiyyatına alınmışdır.

Mərkəzin nizamnamə kapitalının miqdarı 100 000 (yüz min) manat məbləğində, Azərbaycan Respublikası-100 % müəyyən olunmuşdur.

**Mərkəzin əsas məqsədi və fəaliyyət istiqamətləri:**

- Normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli dövlət proqramlarının layihələrinin hazırlanması və hüquqi ekspertizasının aparılmasında iştirak etmək;
- Hüquqi boşluqların və qanunvericilikdə kolliziyaların aşkar edilməsi və aradan qaldırılması üçün qanunvericiliyin inkişafında və təkmilləşdirilməsində iştirak etmək;
- Normayaratma fəaliyyətinin effektivliyinin artırılması məqsədilə mövcud normativ hüquqi bazanın monitorinqinin aparılmasında iştirak etmək;
- Normativ hüquqi tənzimlənmənin təsirinin qiymətləndirilməsinin aparılmasında iştirak etmək;
- Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə və ya dövlət orqanlarının (qurumlarının) sifarişi əsasında hüquqi islahatlar aparılmasına dair təkliflər vermək;
- Hüquqi maarifləndirmə sahəsində tədbirlər görmək;
- Bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

**Publik Hüquqi Şəxsin hüquqi ünvanı, strukturu, işçi sayı və cavabdeh şəxsləri barədə məlumat.**

" Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi " Publik Hüquqi Şəxsin

Hüquqi ünvanı: AZ1143, Bakı şəhəri Yasamal rayonu, Hüseyn Cavid pr., ev 125A
Faktiki ünvanı: AZ1022, Bakı şəhəri Mərdanov qardaşları küçəsi ev 117C.

"Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" Publik Hüquqi Şəxsin 31 dekabr 2023-cü il tarixinə strukturuna müvafiq olaraq **15 nəfər işçisi** olmuşdur.

Audit ilə əhatə olunan dövr üzrə maliyyə hesabatlarının hazırlanmasına aşağıdakı şəxslər cavabdeh olmuşlar:

1. İcraçı direktor – Samir Alı oğlu Mahmudov
2. Maliyyə meneceri Arzu Atluxan qızı Namazova - 06.12.2022-ci il tarixindən bu günədək.

Mərkəzin tabeliyində "Hüquq və İnsan Haqları İnstitutu" Publik Hüquqi Şəxs fəaliyyət göstərir.

"Hüquq və İnsan Haqları İnstitutu" Publik Hüquqi Şəxs Azərbaycan Respublikası Prezidentinin 30 noyabr 1998-ci il tarixli 29 nömrəli Sərəncamı əsasında yaradılıb. Azərbaycan Respublikası Prezidentinin 26 may 2016-cı il tarixli 2069 nömrəli Sərəncamı ilə AMEA-nın İnsan Haqları üzrə Elmi-Tədqiqat İnstitutunun adı dəyişdirilərək Hüquq və İnsan Haqları İnstitutu adlandırılmışdır.

Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin tabeliyində Hüquq və İnsan Haqları İnstitutu hüququn ayrı-ayrı sahələrində, o cümlədən insan hüquq və azadlıqları sahəsində elmi araşdırmaların aparılması və elmi-praktiki tövsiyyələrin hazırlanması, hüquqi maarifləndirmə, qanunvericiliyin inkişafı və təkmilləşdirilməsi, dövlət orqanlarının (qurumlarının) əməkdaşlarının bilik, bacarıq və səriştələrinin inkişaf etdirilməsi, Azərbaycan Respublikasında ictimai-siyasi fikrin və hüquqi şüurun formalaşdırılması sahəsində fəaliyyət göstərən, Mərkəzin fəaliyyətinə elmi və praktiki dəstək verən publik hüquqi şəxsdir.

Qanuna uyğun olaraq, İnstitutun əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. İnstitut məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

İnstitutun fəaliyyət istiqamətləri aşağıdakılardır:

Mərkəzin fəaliyyətinə elmi və praktiki dəstək vermək;

Hüququn ayrı-ayrı sahələri üzrə, o cümlədən insan hüquq və azadlıqları sahəsində fundamental və tətbiqi elmi tədqiqat və eksperimental araşdırmaların aparılmasını və elmi-praktiki tövsiyələrin hazırlanmasını təşkil etmək;

Qanunvericiliyin inkişafı və təkmilləşdirilməsində iştirak etmək;

Normativ hüquqi tənzimləmənin təsirinin qiymətləndirilməsində iştirak etmək;

Hüquqi maarifləndirmə sahəsində fəaliyyət göstərmək;

Dövlət orqanlarının (qurumlarının) əməkdaşlarının bilik, bacarıq və səriştəsinin inkişaf etdirilməsində iştirak etmək;

Azərbaycan Respublikasında ictimai-siyasi fikrin və hüquqi şüurun formalaşdırılmasında iştirak etmək.

İnstitutun nizamnamə fondunun məbləği 50,0 (əlli) min manatdır.

İnstitutun əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən 21 iyun 1999-cu il tarixli (VÖEN) 1300082481 nömrəli dövlət qeydiyyatına alınmışdır.

İnstitutun Hüquqi ünvanı: AZ1073, Bakı şəhəri Yasamal rayonu, Hüseyn Cavid pr., ev 125

Faktiki ünvanı: AZ1073, Bakı şəhəri Yasamal rayonu, Hüseyn Cavid pr., ev 125

2023-cü ildə Rəhbərlik və 9 şöbə üzrə 68 ştat vahidi olmaqla aylıq əmək haqqı 109 820 (yüz doqquz min səkkiz yüz iyirmi) manat təşkil etmişdir.

**Uçot siyasəti Hesabatı**

**1. Maliyyə hesabatlarının əsasları**

Təşkilatın konsolidasiya edilmiş maliyyə hesabatları Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğun hazırlanıb.

**2.Qiymətləndirmə əsasları**

Konsolidasiya edilmiş maliyyə hesabatlarının tərtibi zamanı ilkin dəyər konsepsiyası istifadə edilmişdir.

**3.Əhəmiyyətli uçot siyasətləri**

Maliyyə fəaliyyətinin nəticələrinin və maliyyə vəziyyətinin qiymətləndirilməsinə əhəmiyyətli təsir göstərən əsas uçot siyasətləri.

- **Gəlirin tanınması**

Dövlət büdcəsindən maliyyələşmələr büdcəyə qaytarılan məbləğlər çıxılmaqla qeyri-birja gəliri kimi tanınmışdır

- **Debitor borcları**

Debitor borcları, şübhəli borclar üçün yaradılmış ehtiyat fondları çıxıldıqdan sonra onların güman edilən satış dəyəri ilə yazılır.

- **İşçilərin mükafatlandırılması**

İşçilərə hesablanmış əmək haqqı, illik məzuniyyət, müavinətlər, mükafatlar, təqaüdlər və s. gəlirləri onların aid olduğu hesabat dövrünə aid edilir. İllik məzuniyyət ödənişi cari dövr üçün əmək haqqı normasına əsasən hesablanır. İnstitut Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna hər bir işçinin əmək haqqından 22% məcburi dövlət sosial sığorta haqqı, İşsizlikdən Sığorta Fonduna 0,5.% işsizlikdən sığorta haqqı və İcbari Tibbi Sığorta Fonduna 2% icbari tibbi sığorta haqqı ödəyir. Bu məbləğlər yaranma tarixində xərc kimi tanınır.

- **Ehtiyatlar**

Mərkəzt tərəfindən ehtiyatların əldə edilməsi üzrə məsrəflərə alış qiyməti, idxal rüsumları və digər vergilər ( vergi orqanları tərəfindən əvəzləşdirilən vergilər istisna olmaqla ), daşınma, boşaldılma və hazır məhsulların, xammal-materialların və xidmətlərin əldə edilməsi ilə birbaşa bağlı olan digər məsrəflər daxil edilir. Ehtiyatların əldə edilməsinə çəkilən məsrəflərin müəyyən edilməsi zamanı ticarət endirimləri və digər oxşar güzəştlər uçota alınmır. Mərkəz tərəfindən ehtiyatların emal edilməsi məsrəflərinə məhsul emalı ilə bağlı olan məsrəflər daxil edilir. Əlavə olaraq, hazır məhsulun əldə edilməsi üçün xammalın emalı zamanı yaranan daimi və dəyişən istehsal qaimə xərclərinin müntəzəm şəkildə bölüşdürülməsi də emal məsrəflərinə aiddir. Materialların, sərf edilən əməyin, səmərəliliyin və istehsal gücünün istifadəsinin normativ dərəcələri mütəmadi olaraq təhlil edilir və lazım gəldikdə, cari şərtlər nəzərə alınmaqla yenidən baxılacaqdır.

- **Torpaq, tikili və avadanlıqlar**

Torpaq, tikili və avadanlıqlar onların satınalma dəyəri və ya istehsal qiyməti və onlara hesablanmış amortizasiya məbləği çıxılmaqla göstərilir. Təsərrüfatdaxili istehsal olunmuş tikili və avadanlıqlar, onlara sərf edilmiş material dəyəri, əmək haqqı və qaimə xərclərinin müvafiq payı aid edilir. Torpaq,

tikili və avadanlıqların tanınma meyarlarına cavab verən obyektlər ilkin dəyəri ilə qiymətləndirilir.

İlkin dəyər - aktivin satın alınması və ya tikilməsi, daşınması və quraşdırılması zamanı, onun əldə edilməsi üçün ödənilmiş pul vəsaiti və ya pul vəsaitlərinin ekvivalentləri və yaxud, tətbiq edilməsi mümkün olan təqdirdə, digər Standartların xüsusi tələblərinə uyğun olaraq ilkin mərhələdə tanınmış aid edilən məbləğdir.

**- Amortizasiya**

Amortizasiya, tikili və avadanlıqların alındığı və ya təsərrüfat daxili istehsal olunarsa, istifadəyə yararlı olduğu gündən etibarən, faydalı istismar müddətinə müvafiq olaraq düzxətli metod tətbiq olunmaqla hesablanır. Əsas fondlara amortizasiya ayırmaları "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması qaydasına uyğun illik maliyyə hesabatlarını tərtib edən təşkilatlarda əsas fondlara və qeyri-maddi aktivlərə tətbiq edilən amortizasiya normaları barədə Təlimat"a uyğun olaraq hesablanmışdır.

Bina və avadanlıqların təmiri və xidmət xərcləri baş verdiyi dövrün xərcləri kimi tanınır. Əsaslı təmir xərcləri isə gələcək dövrün xərcləri kimi tanınaraq hissələrlə və ya təmir fondu ehtiyatı yaradıldığı halda ehtiyat hesabına silinir.

## İZAHEDİCİ QEYDLƏR

*1. Uzun müddətli aktivlər*

1.1 Qeyri maddi aktivlər, torpaq,tikili və avadanlıqlar və digər uzunmüddətli aktivlər

| Göstəricilər | Qeyri-maddi aktivlər | Tikili lər | Maşın və avadanlıqlar | Nəqliyyat vasitələri | Digər | Kitabxana fondu | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **01.01.2023 tarixinə ilkin dəyəri** | **0.00** | **0.00** | **44828.20** | **99650.00** | **2755.30** | - | **147233.50** |
| Daxilolma | 0.00 | 0.00 | 9417.56 | 72400.00 | 72595.77 | 107 611.27 | **347 024.60** |
| Xaricolma | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0.00 | 31 123.73 | 0.00 |
| **31.12. 2023 tarixinə ilkin dəyəri** | **0.00** | **0.00** | **139245.76** | **172050.0** | **75351.07** | **76 487.54** | **463 134.37** |
| **01.01.2023 tarixinə yığılmış amortizasiya** | **0.00** | **0.00** | **0.00** | **0.00** | **0.00** | **0.00** | **0.00** |
| Amortizasiya ayırmaları | 0.00 | 0.00 | 11203.22 | 9937.70 | 5115.00 | 0.00 | **26 255.92** |
| **31 dekabr2023 tarixinə yığılmış amortizasiya** | **0.00** | **0.00** | **11203.22** | **9937.70** | **5115.00** | **0.00** | **26 255.92** |
| **01.01.2023 tarixinə balans dəyəri** | 0.00 | 0.00 | 44828.20 | 99650.00 | 2755.30 | 0.00 | **147 233.50** |
| **31 dekabr 2023-ci ilə balans dəyəri** | **0.00** | **0.00** | **128042.54** | **162112.00** | **70236.07** | **76 487.54** | **436 878.45** |

**1.2 Bioloji aktivlər**

| **Göstəricilər** | **Məbləğ** |
|---|---|
| **01.01.2023 tarixinə dəyəri** | **0.00** |
| Daxilolma | **2016.67** |
| Xaricolma | **0.00** |
| 31 dekabr 2023 tarixinə dəyəri | 2016.67 |

*2. Qısa müddətli aktivlər*

**2.1. Ehtiyatlar**

| Göstəricilər | Məbləğ |
|---|---|
| Xammal və materiallar | 10 857.91 |
| Sair ehtiyatlar | 22 011.53 |
| **YEKUNU** | **32 869.44** |

**2.2 Pul vəsaitləri və onların ekvivalentləri**

| Göstəricilər | Məbləğ |
|---|---|
| Bankdakı cari büdcə hesabında pul vəsaitləri | 153105.46 |
| Bankdakı cari büdcədənkənar hesabında pul vəsaitləri | 124 325.12 |
| Biznes kart hesabının qalığı | 957.27 |
| **YEKUNU** | **278 387.85** |

**2.3. Sair qısamüddətli aktivlər**

| Göstəricilər | Məbləğ |
|---|---|
| Verilmiş qısamüddətli avanslar | 87 144.00 |
| Təhtəlhesab məbləğlər | 8.00 |
| **YEKUNU** | **87 152.00** |

**3. Kapital**

**3.1. Ödənilmiş nominal (nizamnamə) kapitalı**

| Göstəricilər | Məbləğ |
|---|---|
| Nominal (nizamnamə) kapitalı | 150 000.00 |
| **YEKUNU** | **150 000.00** |

**3.2. Kapital ehtiyatları**

| Göstəricilər | Məbləğ |
|---|---|
| Digər ehtiyatlar | 115 516.00 |
| **YEKUNU** | **115 516.00** |

**3.3. Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)**

| Göstəricilər | Məbləğ |
|---|---|
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət | 41 364.85 |
| Hesabat dövrünün xalis mənfəəti (zərəri) | 261 894.72 |
| **YEKUNU** | **303 259.57** |

### 4. Qısamüddətli öhdəliklər

| Göstəricilər | Məbləğ |
|---|---|
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 25 270.53 |
| Əməyin ödənişi üzrə işçi heyətinə olan borclar | 1 175.18 |
| Digər qısamüddətli kreditor borcları | 860.82 |
| Sair qısamüddətli öhdəliklər | 27 245.85 |
| Gələcək dövrün gəlirləri | 84 394.00 |
| Sair qısamüddətli öhdəliklər (Dövlət büdcəsindən maliyyələşmə qalığı) | 129 582.85 |
| **YEKUNU** | **268 529.23** |

### 5. Gəlirlər

| Göstəricilər | Məbləğ |
|---|---|
| Əsas əməliyyat gəlirləri | 124 300.00 |
| Sair əməliyyat gəlirləri (Dövlət büdcəsindən daxilolmalar) | 3476 621.00 |
| Əvvəlki ilin gələcək dövrün gəlirləri | 43 191.89 |
| Sair gəlirlər (Qrant) | 9 401.02 |
| **YEKUNU** | **3 653 513.91** |

### 6. Xərclər

| Göstəricilər | Məbləğ |
|---|---|
| İnzibati xərclər | 3 335 635.19 |
| Sair əməliyyat xərcləri | 31 124.00 |
| **YEKUNU** | **3 366 759.19** |

### 7 .Mənfəət (ödənilməmiş zərər)

| Göstəricilər | Məbləğ |
|---|---|
| Hesabat dövrünün ümumi mənfəəti (zərəri) | 286 754.72 |
| Mənfəət vergisi üzrə xərclər | 24 860.00 |
| Hesabat dövrünün xalis mənfəəti (zərəri) | 261 894.72 |

### 8. Mənfəət vergisi

| Göstəricilər | Məbləğ |
|---|---|
| Mənfəət vergisi | 24 860.00 |
| **YEKUNU** | **24 860.00** |

**Hesabat tarixindən sonra baş vermiş hadisələr**

Hesabat tarixindən sonrakı dövr ərzində Təşkilatda hər hansı əhəmiyyətli dəyişiklik baş verməmişdir.

**Rəhbərlik tərəfindən:**

**Samir Mahmudov**
**İcraçı direktor**

**Arzu Namazova**
**Maliyyə meneceri**

AZƏRBAYCAN RESPUBLİKASI PUBLİK HÜQUQİ ŞƏXSİ HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ PUBLIC LEGAL ENTITY THE REPUBLIC OF AZERBAIJAN

**M.Y**